**UOT: 730**

**Ülya Abdullayeva**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**Müəllim**
**e-mail: ulya.abdullayeva@yahoo.com**

# CƏLAL QARYAĞDININ YARADICILIĞINDA MİLLİ QƏHRƏMAN OBRAZLARI

**Xülasə**: Məqalədə Azərbaycanın görkəmli heykəltəraşı Cəlal Qaryağdının yaratdığı Böyük Vətən müharibəsində igidlik göstərmiş milli qəhrəmanların obrazlarından söhbət açılır. Onlar Vətənimizin şanlı tarixinin örnək olan anlarını yaşatdığı üçün bir sənət əsəri kimi bu gün də bədii dəyərini itirməmişdir. Həmçinin sənətkarın qəhrəmanlara həsr etdiyi əsərləri təhlil olunaraq bədii və estetik xüsusiyyətləri araşdırılmışdır.

**Açar sözlər:** Cəlal Qaryağdı, heykəltəraşlıq, obraz, portret, qəhrəman, müharibə.

Milli qəhrəman obrazları, demək olar ki, bütün təsviri sənət ustalarımızın yaradıcılıqlarında mühüm yer tutur. Çünki tarixi şəxsiyyətlərin, xüsusilə milli qəhrəmanların bədii obrazları həmişə xalqımızda vətənpərvərlik ruhiyyəsini oyatmış və doğma yurdun müdafiəsində millətimizin əzmli-iradəli olmasını şərtləndirmişdir. Müharibə zamanı əgər ön cəbhədə hərbçi – zabitlərimiz döyüşürdüsə, eyni zamanda arxa cəbhədə yaradıcı insanlar, ələlxüsus elm və mədəniyyət xadimləri öz qələm, fırça və tişələri ilə döyüşürdü.

Yaradıcılığında milli qəhrəman obrazlarına geniş yer ayıran görkəmli heykəltəraşlardan biri də Xalq rəssamı Cəlal Qaryağdı olmuşdu. Bu mənada heykəltəraşın ilk Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülmüş İsrafil Məmmədov, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank diviziyasının general - mayoru Həzi Aslanov, Sovet İttifaqı Qəhrəmanları Adil Quliyev və Aslan Vəzirov, ilk azərbaycanlı snayper qadın Ziba Qəniyeva və ilk azərbaycanlı təyyarəçi qadın Züleyxa Seyidməmmədovaya həsr olunmuş heykəllərini qeyd edə bilərik.

Təsadüfi deyil ki, Cəlal Qaryağdı yaradıcılığının zirvəsi və sənətinin məhsuldar dövrü ötən əsrin 40-cı illərinə təsadüf edir. Yaradıcılığının əsas hissəsi kommunist ideologiyasının hakim olduğu dövrlə üst-üstə düşsə də, onun yarat-

dığı heykəllərdə siyasi mövqeyə olduqca az rast gəlinir. Bildiyimiz kimi, Böyük Vətən müharibəsi dövründə incəsənət nümayəndələrinin, o cümlədən Cəlal Qaryağdının da həyatı bir qədər ürəkaçan deyildi. Buna rəğmən o, bu çətin zaman kəsiyində baş verən hadisələrə biganə qalmamış və öz yaradıcılığında dövrün hadisələrinə "bədii güzgü" tutan, bu günə qədər bədii əhəmiyyətini itirməyən əsərlər yaratmışdır. Müharibənin birinci ilindən diviziya qəzetinin redaksiyasında işləyən və siyasi karikaturalarla çıxış edən sənətkar çox çətin bir tarixi şəraitdə fəaliyyətini davam etdirmiş, zamanın təzadlı tələblərinə sinə gərmişdir. Qeyd edək ki, həmin illərdə Cəlal Qaryağdı hətta yaradıcılıq fəaliyyətini yarıda qoyub ön cəbhədə hərbçi əsgər kimi Vətəninə xidmət etmişdir. Odur ki, onun əsərlərində qəhrəmanlıq və vətənpərvərlik ruhiyyəsi heç də təsadüfi deyil.

Böyük Vətən müharibəsindən sonra yaradıcılıq fəaliyyətini daha da gücləndirən heykəltəraşın yaradıcılıq axtarışları yaddaqalan obrazların yaradılmasına yönəldilmişdir. Beləliklə, müharibə qəhrəmanlarının portretlərini yaratmaq görkəmli tişə ustasının sevimli işinə çevrilir və yaratdığı qəhrəman obrazlarının iradə və əyilməzliyini daha qabarıq şəkildə təqdim etməklə, insan xarakterinin müsbət cizgilərini tərənnüm edirdi.

Cəlal Qaryağdının dəzgah heykəltəraşlığında insan surətlərinin fərdi xüsusiyyətləri, obrazların daxilən keçirdiyi həyəcan, onların gücü və gözəlliyi aydın ifadəsini tapır. Heykəltəraşın igid Azərbaycan oğlu, Vətənimizin ilk Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülmüş İsrafil Məmmədova həsr etdiyi "Zəmanəmizin Koroğlusu" (1944) adlı barelyefində qəhrəmanın fiziki qüvvəsi, mətinliyi, düşmənə nifrəti ön planda göstərilmişdir. Özünün ölçüsünə görə çox da böyük olmayan barelyef monumentallıq səciyyəsi daşıyır. Döyüşçünün fiquru doğru və ifadəli, obraz psixoloji baxımdan inandırıcı və emosionaldır. Plastik tərzin təmkinliyi formanı ümumiləşdirir və bununla yanaşı dərk edilmənin bütövlüyünə köməklik göstərir (6; s. 16).

Sovet İttifaqı Qəhrəmanı Adil Quliyevin portretini (1945) Cəlal Qaryağdı müəyyən fasilələrlə yaratsa da, öz dinamikliyi ilə diqqəti cəlb edir. Adil Quliyevin portreti Azərbaycan plastika sənətinin uğurlu nümunəsidir. Hər şeydən əvvəl portret sənətkarlıq meyarlarına - bədii obrazın inandırıcı həllinə görə mükəmməldir. Heykəltəraş cəsarətli təyyarəçini sadə, gülərüz və çılğın insan kimi təsvir etmişdir. Heykəldə qəhrəmanın çiyinlərə nisbətən başının sərt dönüşü və sərrast baxışı onun çılğın xasiyyətindən xəbər verir. "Büst formasında işlənmiş hey-

kəltəraşlıq portretində “yumşaq” və sərt yapma texnikasının vəhdətindən yaranmış incə plastik səthlərin və dinamik formaların vahid obrazda birləşməsinin şahidi oluruq” (3; s. 27). Portretdə plastika ilə dəqiq daxili quruluş vəhdət təşkil edir. Sənətşünaslıq üzrə elmlər doktoru, professor Cəmilə Novruzova Adil Quliyevin portretini çoxmillətli sovet incəsənətinin qiymətli xəzinəsi adlandırmışdır.

Cəlal Qaryağdının yaradıcılığında Azərbaycanın hərbçi qəhrəman qadınlarının obrazları da yüksək ustalıqla işlənilmişdir. İlk azərbaycanlı snayper qadın və ilk azərbaycanlı təyyarəçi qadın Züleyxa Seyidməmmədovaya həsr olunmuş heykəllər bu qəbildəndir.

Ziba Qəniyeva Vətənimizin hərb tarixinin qürurverici simalarındandır. Vətənin dar günündə əfsanəvi igidliklər göstərən Ziba Qəniyevanın portreti (1948) Cəlal Qaryağdının tamaşaçının diqqətini öz orijinal kompozisiyası ilə cəlb edən əsərlərindəndir. “Onun geniş açılmış gözləri, üzündəki mərdlik nişanələri və başqa qəhrəmanlıq xüsusiyyətləri olduqca canlı təsvir edilmişdir. Bu heykəldə tişə ustası surətin bütün psixoloji xüsusiyyətlərini üzə çıxarmağa çalışmışdır. Bu portretə hansı tərəfdən baxılarsa, onda bir sıra gözəl aspektlərin olduğu nəzərdən qaçmır” (7; s. 9). Onun gözləri bir nöqtəyə zillənmişdir, sanki atəş açmağa hazırlaşır. Snayper ruhuna uyğun olaraq saatlarla hərəkətsiz qalıb, ancaq gözətçi olmalısan. Bu portretdə tişə ustası qəhrəmanın obrazında snayper ruhunu çatdıra bilmişdir. Onun xarici görünüşü nə qədər sakitdirsə, daxili aləmi o qədər gərgindir. Bu əsərə tamaşa edənin qəhrəmanlıq ruhu oyanmaya bilməz. Yəqin ki, Cəlal Qaryağdı da qarşısına bu məqsədi qoymuş və buna nail olmuşdur. Əsərdəki ifadə dəqiqliyi, obraz kəskinliyi hər kəsin diqqətini özünə cəlb edir.

Cəlal Qaryağdı xarakterlərin daxili aləminə nüfuz etməyi bacaran sənətkardır. Onun yaratdığı qəhrəmanlar içində daha bir “ilk”in öz yeri var. Faşizm üzərində parlaq qələbədə öz payı olan ilk azərbaycanlı təyyarəçi qadın Züleyxa Seyidməmmədovanın büst - heykəlini yaradan heykəltəraş hərbçi geyimində, orden və medallarla təltif edilmiş gənc təyyarəçi qadının sərt və əyilməz obrazını realist görkəmdə əks etdirmişdir.

Cəlal Qaryağdı yaradıcılığı üçün bir şəxsin obrazına dəfələrlə müraciət etmək səciyyəvi haldır. O, hər dəfə həmin obrazın bədii səciyyələndirilməsində yeni cəhətləri aşkarlamağa səy göstərir. Heykəltəraş üçün belə sevimli obraz iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank diviziyasının general-mayoru Həzi Aslanovdur. O, Həzi Aslanov obrazına 1944, 1948 (iki dəfə), 1955, 1961 və 1976-cı

illərdə müraciət etmiş, qəhrəmanın portretlərini hazırlamış, gələcək monumental abidə üçün təməl yaratmışdır. 1944-cü ildə kağız və karandaşla başlanan yaradıcılıq axtarışları 1948-ci ildə gips, 1948 və 1976-cı illərdə tunc, 1955-ci ildə mərmər portretlərlə davam etmişdir.

Heykəltəraşın müharibədən bir neçə il keçdikdən sonra, daha dəqiq desək 1948-ci ildə yaratdığı büst – portret Cəlal Qaryağdının Həzi Aslanov haqqında ilkin təəssüratlarını təcəssüm etdirir. "Həzi Aslanov portretinin birinci variantı qəhrəmanın adını daşıyan "Bakı Zabitlər evi"nin foyesi üçün hazırlanmış və orada daima nümayiş etdirilmişdir. Həzi Aslanov portretinin ikinci variantı qəhrəmanın Lənkərandakı ev-muzeyi üçün işlənmişdir və bu günədək orada nümayiş etdirilir. Qəhrəmanın ev muzeyi üçün hazırlanan heykəldə Həzi Aslanov general geyimində, yaxasında orden və medallarla birgə təsvir olunmuşdur. Burada Həzi Aslanovun tank sərkərdəsinə xas sərtliyi, zəhmi, təkrarolunmaz şəxsiyyətə malik özünəməxsusluğu və insani keyfiyyətləri heykəltəraş tərəfindən ön plana çəkilmişdir" (3. s. 27).

1948-ci ildə bədii görüntüyə gətirilmiş qəhrəmanın hər iki obrazında öz dövrünün xarakteristikası – patetika və qəhrəmanlıq romantikası daha qabarıq şəkildə hiss olunur. Belə ki, bu obrazda sadə insanlara deyil, məhz milli qəhrəmana xas patetik əhval ruhiyyə öz əksini tapmışdır. Bütün bu xüsusiyyətləri biz təsvir olunan Həzi Aslanov obrazının siması və hərəkətində görə bilirik.

"Tişə ustası Həzi Aslanovun büst-portretlərində surətin psixoloji xüsusiyyətlərini üzə çıxarmağa çalışmışdır. Bu əsərlərə diqqətlə baxanda adama elə gəlir ki, öz qarşısında çətin vəziyyətdən çıxmağı bacaran mətanətli sərkərdə görür" (8. s. 68). Qəhrəmanın büst-heykəli ev muzeyinin önündə tunc materialından kiçik postament üzərində yerləşdirilmişdir.

Cəlal Qaryağdı tərəfindən Həzi Aslanovun şərəfinə 8 may 1983-cü ildə monumental abidə ucaldılmışdır. Neçə illərdir üzərində çalışdığı abidə qəhrəmanın vətəni Lənkəran şəhərinin mərkəzində qoyulmuşdur. Əsər vətən qoruyucusunun adını daşıyan xatirə parkında yerləşir. "Həzi Aslanovun 5 metrlik fiquru ayaq üstə, döyüşün qızğın çağında, cəbhəyə rəhbərlik etdiyi anı təsvir edir. Ümumi hündürlüyü 11 metrə çatan heykəldə bürünc və qranit materiallarından istifadə edilmişdir" (4).

Nəticə etibarilə qeyd edək ki, Böyük Vətən müharibəsinin qəhrəmanlarının obrazlarını yaratmaq Cəlal Qaryağdı yaradıcılığında önəmli yer tutur. Onun

milli qəhrəmanlarımıza həsr edilmiş portretlərində Vətənə sevgi, cəsurluq, igidlik, mübarizə, qalib gəlmək ruhu açıq-aşkar görünür. Eyni zamanda bu əsərlərdə həyatilik, obrazların kəskinliyi və emosionallığı qabarıq şəkildə müşahidə olunur.

**Ədəbiyyat siyahısı:**

1. Abdullayeva Ü. "Cəlal Qaryağdı yaradıcılığında tarixi şəxsiyyətlərin obrazları", "Musiqi dünyası" jurnalı, № 2, 2018.

2. Hidayətqızı S. "Mənim Cəlalım heykəltəraşlıq sənətinin tarixi idi" "Mədəniyyət.Az" jurnalı, № 7, 2015.

3. İbrahimov T. "Cəlal Qaryağdı", "Sərvət" albomlar silsiləsindən kitab - albom, "Şərq - Qərb Nəşriyyat Evi, Bakı - 2013.

4. Məmmədov N. "Danışan heykəllər", "Ədəbiyyat və incəsənət" qəzeti, 12 fevral 1972.

5. Nəcəfov M., Novruzova C. "Heykəltəraşlıq haqqında" "Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı" nəşriyyatı, Bakı - 1960.

6. Sadıqov S. "Heykəltəraş Cəlal Qaryağdının yaradıcılıq aləmi" "Paritet" qəzeti, 7 - 9 yanvar 2012, səh 16.

7. Tərlanov M. "Cəlal Qaryağdı", "Azərnəşr", Bakı -1958.

**Улья Абдуллаева**

## ОБРАЗЫ НАЦИОНАЛЬНЫХ ГЕРОЕВ В ТВОРЧЕСТВЕ ДЖАЛАЛА ГАРЯГДЫ

**Резюме:** В данной статье рассматриваются образы национальных героев, проявивших мужество в Великой Отечественной войне, созданные выдающимся азербайджанским скульптором Джалалом Гарягды. Как произведение искусства они не утратили своей художественной ценности и сегодня, так как прожили образцовые моменты славной истории нашей страны. Также были проанализированы художественно-эстетические особенности произведений художника, посвященных героям.

**Ключевые слова:** Джалал Гарягды, скульптура, образ, портрет, герой, война.

**Ulya Abdullayeva**

## IMAGES OF NATIONAL HEROES IN THE CREATIVITY OF JALAL GARYAGDI

**Summary:** This article examines the images of national heroes who showed courage in the Great Patriotic War, created by the outstanding Azerbaijani sculptor Jalal Garyagdy. As a work of art, they have not lost their artistic value even today, as they have lived exemplary moments of the glorious history of our country. The artistic and aesthetic features of the artist's works dedicated to the heroes were also analyzed.

**Key words:** Jalal Garyagdi, sculpture, character, portrait, hero, war.